DOI: 10.36719/AEM/2007-2020/54/157-160

**Şəms Abdulla qızı İmanzadə**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
shems.imanzade@mail.ru

# XINALIQ TARİXİ-ETNOQRAFİYA MUZEYİNİN YARANMASININ TARİXİ SƏBƏBLƏRİ

***Açar sözlər:*** *Xınalıq, muzey, tarix, etnoqrafiya, eksponat*
***Key words:*** *Khinalig, museum, history, ethnography, exhibit*
***Ключевые слова:*** *Хиналыг, музей, история, этнография, экспонат*

Dünyanın hər bir xalqı müəyyən mədəniyyətə malikdir. Lakin müxtəlif xalqlarda mədəniyyətin inkişaf dinamikası da müxtəlifdir. Hər bir xalqın mədəniyyət və məişətindəki özünəməxsusluq onun etnik dünyasını təşkil edir. Etnoqrafiya muzeylərinin ən geniş yayılmış növlərindən biri açıq səma altında yaranmış muzeylər qrupudur. Bu tip muzeylərin yaranması azsaylı xalqların uzun illər məskunlaşdıqları coğrafi bölgənin nadir tarixi ərazi statusu alması ilə əlaqəlidir.

Etnoqrafik baxımdan Azərbaycan ən zəngin ərazilərdən biridir. Azərbaycanın aborigen azsaylı xalqları içərisində özünəməxsus etnoqrafik xüsusiyyətləri ilə seçilən xalqlardan biri də xınalıqlılardır. Bu etnos Qafqaz dil ailəsinə daxil olub, Şahdağ ətrafında yerləşmələrinə görə tarixi-etnoqrafik ədəbiyyatda "Şahdağ xalqları" adlandırılır (9). Azərbaycanın ən qədim sakinlərindən olan xınalıqlılar yeganə dilə və yaşayış məskəninə mənsubdur. Yəni Xınalıq kəndi və xınalıq dili dünyada yanlız Azərbaycanın Quba rayonuna məxsusdur .

Unikal memarlıq görkəminə malik Xınalığın tarixi çox qədimdir. Eramızın birinci əsrində yaşamış yunan alimi və coğrafiyaşünası Strabon "Coğrafiya" adlı 17 cildlik əsərində Qafqazda yaşayan 26 alban tayfalarının arasında xınalıqlıların da adını qeyd edir. Xınalıq kəndinin qədim tarixə malik olduğunu kəndin ərazisində aşkar olunan 8 böyük qəbiristanlıq və bu qəbiristanlıqlardakı 3-4 mərtəbəli qəbirlər də sübut edir.

5000 illik tarixə malik olan Xınalıq dünyanın ən yüksək yaşayış məntəqələrindən biri olmaqla yanaşı özündə ən zəngin etnoqrafik dəyərləri birləşdirir.

Xınalıq kəndi Şimaldan Şahdağ, Şimal-Şərqdən Qızıl Qayada yerləşən Heydər Zirvəsi, Şimal - Qərbdən Tufan Zirvəsi, Cənub - Qərbdən Qiblə dağı ilə əhatə olunmuşdur. Dəniz səviyyəsindən 2300 metr yüksəklikdə yerləşən Xınalıq kəndidə hazırda 1500 nəfərə qədər əhali yaşayır və özünəməxsus coğrafi mövqeyə və unikal memarlıq görkəminə malikdir. Maldarlıqla məşğul olan Xınalıq camaatının bir neçə minillik tarixi ənənəsi var. Maddi mədəniyyətlə yanaşı, mənəvi mədəniyyət nümunələri, qədim adət-ənənələr də qorunub saxlanmışdır (4).

Yaşı yüzilliklərlə ölçülən Xınalıq Azərbaycanın qədim və səfalı guşələrindən biri olub, yüksək dağ silsilələri arasında yerləşən tarixin və təbiətin yaratdığı özünəməxsus açıq səma altında muzeyi xatırladır. Uzun illər təcrid olunmuş şəkildə qalan kənd ənənəvi inşaat üsullarını, folklor və etnoqrafik ənənələrini qoruyub saxlayıb. Bir sözlə, özünün ilkin memarlıq simasını, eləcədə köhnə məişət tərzi ilə səsləşən etnoqrafik əlamətlərini saxlayan bu yaşayış məskəni sivilizasiyasının təsirinə məruz qalmayan canlı tarixdir.

Xınalıq Dövlət tarix-memarlıq və etnoqrafiya qoruğu Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Quba rayonunun Xınalıq kəndinin tarixi ərazisinin Azərbaycan Respublikasının "Xınalıq" Dövlət tarix-memarlıq və etnoqrafiya qoruğu və Ağstafa rayonunun ərazisində Keşikçidağ silsiləsinin bir hissəsini əhatə edən mağaralar kompleksinin Azərbaycan Respublikasının "Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğu elan edilməsi haqqında" 2007-ci il 19 dekabr tarixli 2563 nömrəli Sərəncamı ilə yaradılmışdır (1). Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 sentyabr tarixli 220 nömrəli qərarı ilə "Azərbaycan Respublikasının "Xınalıq" Dövlət tarix-memarlıq və etnoqrafiya qoruğunun Əsasnaməsi" təsdiq edilmişdir (2).

Kəndin ərazisi qoruq elan olunduqdan sonra Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Xınalıq kəndinin dilinin və etnoqrafiyasının öyrənilməsi, eyni zamanda kəndin unikal görünüşünün qorunub saxlanılması haqqında bir sıra mühüm işlər görülmüşdür.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən qoruğun özünəməxsusluğunun qorunub saxlanılması üçün qoruq ərazisində yerləşən tarixi və mədəniyyət abidələrinin qorunması və istifadəsi ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir. Mütəmadi olaraq Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu Xınalıq kəndi ərazisində və ətraf ərazilərdə arxeoloji tədqiqat işləri aparmışdılar (5). Arxeoloji qazıntılar nəticəsində çoxsaylı kurqanlarla yanaşı müxtəlif dövrlərə aid yeni abidələr aşkar olunmuşdur. Yeni aşkar olunan bu abidələr "Zanqar" (Xınalıq) və "Kıma liqerbiş" (qədim qə-

birstanlıq) adlanırdı və bu abidələrdən erkən tunc dövrünün öyrənilməsində maddi sübut kimi istifadə olundu. Tədqiq olunan maddi mədəniyyət nümunələri içərisində məsələn, bir ədəd dəmir ox ucu, müxtəlif növ muncuqlar, tuncdan hazırlanmış təkrarsız bəzək əşyaları aşkar olunmuşdur.

Xınalıq arxeoloji ekspedisiyasının rəhbəri, İdris Əliyevin bildirdiyinə görə, dəniz səviyyəsindən 2300 metr hündürlükdə yerləşən Xınalıq kəndi, həmçinin, "Xınalıq" tarixi-memarlıq və etnoqrafik qoruğu ərazisində yerüstü, o cümlədən, memarlıq abidələri qeydə alınıb. Amma ərazi arxeoloji cəhətdən faktiki tədqiq olunmayıb (11).

İ.Əliyevin məlumatına görə, onun rəhbərlik etdiyi Xınalıq arxeoloji ekspedisiyası tərəfindən bu ilin tədqiqat mövsümündə Xınalıq kəndinin cənub-şərqindəki ərazidə e.ə. I minilliyin ortalarına və ikinci yarısına aid edilən nekropol aşkar edilib. Coğrafi şəraitdən və relyefdən qaynaqlanan obyektiv çətinliklərə baxmayaraq, ekspedisiya əhəmiyyətli nəticələrə imza atıb.

İlkin aşkar edilmiş və tədqiq olunmuş 12 qəbir əsasən şərq-qərb istiqamətlidir, daş plitə parçaları ilə divarları üzlənmiş və üzəriləri daş plitələrlə örtülüb. Aşkar edilmiş skeletlər əsasən sağ, həmçinin sol böyürü, həm də beli üzərində uzadılmış vəziyyətdədirlər. Onların kəllələri şimal-qərbə istiqamətlənmişdir. Skeletlər və onlardan nümunələr antropoloji və d. çeşidli analizlər üçün götürülüb.

Tədqiq edilmiş qəbirlərdə zəngin dəfn inventarı aşkar edilib. Dəfn inventarı içərisində tunc və dəmirdən hazırlanmış silahlar (nizə, ox ucluqları və d., o cümlədən, iskitlərə xas ox ucluğu), tuncdan bəzək əşyaları (qolbaqlar, asmalar, tac formasında dəmir lövhələr - alınlıqlar, saç sancaqları və d.), çoxsaylı əqiq, pasta mənşəli muncuqlar və d. maddi mədəniyyət nümunələri qeyd edilib. Maddi mədəniyyət nümunələri ərazinin müasir Azərbaycanın Şimali-Qərb və Şimali-Şərq regionları həmçinin, müasir Dağıstan (Rusiya Federasiyası) ilə öz dövründə intensiv mədəni əlaqələrə malik olmasını bariz nümayiş etdirməkdədir.

"Nekropolda hələki tədqiq edilmiş 12 qədim qəbirin tarixini təqribən e.ə. I minilliyin ortalarına və ikinci yarısına, ehtimalımıza görə, e.ə. V-III əsrlərə aid etmək olar. Bu ehtimalı qəbirlərin quruluşu, dəfn inventarındakı materiallar əsasında irəli sürə bilərik. Amma gələcəkdə ərazidə daha geniş arxeoloji və arxeometrik araşdırmalar nekropolun sərhədlərini və zaman çərçivəsini dəqiqləşdirəcək. Digər tərəfdən, nekropolun mövcudluğu yaxınlıqda həmdövr qədim məskənlərin də olmasına işarə edir" (11).

Xınalıq Tarix - Etnoqrafiya Muzeyini 2001-ci ildə kənd ağsaqqalı Xəlilrəhman Abdürrəhman oğlu təşəbbüs göstərərək kənd əhalisinin köməyi ilə yaratmışdır. Kəndin mərkəzi hissəsində yerləşən bu muzey Xınalığın tarix və mədəniyyətinin çox cüzi hissəsini özündə cəmləşdirmişdir.

Ümumi sahəsi 160 kvadratmetr olan iki zalda ənənəvi qab-qacaq, geyim, xalçalar, avadanlıq, əslən bu kənddən olanların fotoşəkilləri və digər maraqlı eksponatlarla tanış olmaq mümkündür (3). Muzeyin eksponatları ekspozisiyada qarışıq şəkildə yerləşdirilmişdir. Muzeydə Xınalığın qədim dövrlərindən qalmış arxeoloji və etnoqrafik materialları, o cümlədən kilim və xalçalar, gil və mis qablar, müxtəlif ev və məişət əşyaları, daş kitabələr və daha bir çox əşyalar muzeyə gələnlərə burada vaxtı ilə mövcud olmuş yüksək bir mədəniyyətdən xəbər verir. Qədim qalanı xatırladan muzey binasının girəcəyində əslən Xınalıqdan olan şair, publisist, tərcüməçi və pedaqoq Rəhim Alxaslının əsərləri düzülmüşdür.

Xınalığın digər yaradıcı adamlarının və şairlərinin əsərləri də muzey ziyarətçilərində maraq doğurur. Birinci zaldakı eksponatlar arasında XIX əsrə aid olan qoyun bağırsağından toxunmuş kilə, eyni zamanda taxıl ölçmək üçün müxtəlif səbətlər kəndin taxılçılıqla məşğul olduğunu sübut edir. Muzeydə diqqəti cəlb edən eksponatlar arasında kətan parçalar və digər geyim əşyalarının işlənilməsində istifadə edilən qədim alətlər kolleksiyası da vardır ki, bu da Xınalıqda parça, xalça istehsalının mövcudluğundan xəbər verir. Biçinçilikdə istifadə olunmuş müxtəlif ölçülü oraq nümunələri, dəri məmulatlarının istehsalını göstərən çarıqlar və digər ayaq geyimləri də diqqəti cəlb edir. Muzeydə nümayiş olunan kotan ucluqlar isə əkinçiliyin inkişafını sübut edir.

Ekspozisiyada XVII - XIX əsrlərə aid dəvə və at üzəngiləri də var. At buxovları, yabalar və digər kənd təsərrüfatı nümunələri XVIII - XIX əsrlərə aiddir.

Maraq doğuran nümunələr içərisində XVIII-XIX əsrlərə aid müxtəlif ölçülü, üzərində təsvirləri olan xurcunlar, həbgələr, namazlıqlar, corablar, uşaq geyimləri, qurşaqlar, pul kisələri təbii rənglərlə boyanmış, yundan toxunmuşdur. XIX əsrə aid daş ütülər də diqqətçəkəndir (4).

Simmetrik quruluşa malik olan kənd təsərrüfati bitkilərinin çəkisini təyin etmək üçün muzeydə qorunan qədim tərəzilər maraq doğuran eksponatlar sırasındadır. Çox nadir əşyalar sırasında XIX əsrə aid saz Xınalığın orta əsrlərə aid musiqi mədəniyyəti nümunəsi kimi qəbul edilir.

Tarixi, dini, təbiət, etnoqrafiya, dil baxımından əhəmiyyət kəsb edən XII - XIX əsrlərə aid zəngin kitab kolleksiyası zalın baş tərəfində nümayiş etdirilir. Nümayiş olunan əsərlər içərisində bədii ədəbiyyat nümunələri də vardır. Bu mənbələr Xınalıqda məktəb və mədrəsələrin fəaliyyət göstərməsi ilə yanaşı, əhalinin müxtəlif mərkəzlərin elm ocaqları, məktəb və mədrəsələri ilə əlaqələr yaratmış olduğunu sübuta yetirir.

Xınalığın ailə-məişət mərasimlərini əks etdirən XVIII əsrə aid orijinal naxışlarla bəzədilmiş sandıqlar da muzeydə maraq doğuran əşyalar sırasındadır.

Astronomik müşahidələr aparmaq üçün XVII-XVIII əsrlərə aid olan təqvimlər nümayiş olunan eksponatlar sırasındadır. Muzeydə XVIII-XIX əsrlərə aid misdən hazırlanmış müxtəlif ölçülü samovarlar, müxtəlif tarixi dövrlərə aid kağız pullar və sikkələr də nümayiş etdirilir. XX əsrə aid ağacdan hazırlanan kilə, XIX əsrə aid saz çox nadir eksponatlar sırasındadır.

XVIII - XIX əsrlərin Xınalıq zərgərləri, dəmirçiləri və duluzçuları tərəfindən zəngin bəzəklər həkk edilmiş mis zəncirlər, sinilər, kəfkirlər, qaşıqlar, camlar, süzgəclər, sərpuşlar, məcməyilər, parçlar, həvəngdəstələr, saxsı küplər, dolçalar maraqlı bədii sənətkarlıq nümunələridir. Saxsıdan hazırlanmış çıraqlar, dolçalar, camlar 500 - 600 illik tarixə malikdir (4).

XIX əsrə aid dəstamaz almaq üçün mis ləyən, XVII əsr ustaları tərəfindən hazırlanmış mis qazanlar, səhənglər ekspozisiyanı daha da zənginləşdirir.

Xınalıqda qədim xəttatlıq mədəniyyəti də olmuşdur ki bunu da muzeydə nümayiş olunan XV-XVIII əsrlərə aid daş kitabələr sübut edir.

Tarixin müəyyən dövrlərində xarici hücumlardan qorunması üçün ustalar tərəfindən hazırlanan naqanlar, tüfənglər, müxtəlif ölçülü qılınclar, xəncərlər,nizə ucluqları XV - XVII əsrlərə aid digər silahlar bugünə qədər gəlib çatib və muzeydə xüsusi ilə diqqəti cəlb edən eksponatlar sırasındadır.

Muzeydə Xınalığın İkinci Dünya müharibəsi iştirakçılarının və qəhrəmanlarının təltif edildiyi medallar da toplanıb.

Əlyazma kitabların olduğu hissədə XV əsrdən XX əsrin əvvəllərinə qədər tarixləşən sovet dövrünün qorxusundan damlarda, qəbirlərdə saxlanılmış və müstəqillik dövründə ortaya çıxarılmış qiymətli əlyazma əsərləri nümayiş etdirilir. Burada olan kitablardan aydın olur ki, kəndin keçmişi elmlə sıx bağlı olub, vaxtı ilə Xınalığın mühüm bir elmi mərkəz olduğundan xəbər verir. Tarix, dil, məntiq, riyaziyyat, təbabət kimi elmlərə aid olanlar ilə birlikdə fiqh, kəlam, təfsir, hədis kimi dini elmlərlə əlaqəli yüksək səviyyəli kitabların varlığı bunu sübut edir. Bu qiymətli əsərlərin tədqiq edilərək kataloqunun hazırlanması ve nadir nüsxələrin surətlərinin çıxarılması təcili görülməli işlərdir (8).

Xınalıq 2001-ci ildə "Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri", 2007-ci ildə isə Dünya Abidələr Fondunun siyahısına daxil edilmişdir (7).

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Xınalıq" Dövlət tarix-memarlıq və etnoqrafiya qoruğunun özünəməxsusluğunun qorunub saxlanılması üçün qoruq ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin qorunması və istifadəsi ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirilmiş, komissiyalar yaradılmış, müvafiq işlər aparılmışdır. Eyni zamanda qoruğun 2010-2015-cı illər üzrə Dövlət İnkişaf Proqramının layihəsi işlənmişdir (10).

Azərbaycan dövlət turizm sektorunun inkişafı üçün bir sıra layihələr hazırlayaraq bu sahəyə xüsusi diqqət ayırır. Belə ki, son illər ölkəmizə turistlərin diqqətinin artması bu istiqamətdə dövlətin apardığı siyasətin düzgün yolda olduğunu göstərir. Təbii ki, turizm sektorunun inkişafı üçün ölkəmizin zəngin, qədim tarixi məkanları bu sahənin inkişafina təkan verir. Bu gün ölkəmizdə yerləşən Xınalıq kəndi də Azərbaycanın turizm sektoruna bir töhvə verir. Xınalıq kəndi öz tarixliyi, qədimliyi, zəngin adət-ənənəsi ilə ölkəmizə gələn turistlərin diqqətini özünə cəlb edə bilir. Turizmin bu ərazidə inkişafi həm dövlət, həm də yerli əhali üçün yaxşı gələcək və rifah vəd edir. Bu gün Xinalıq bir qoruq olaraq qorunur və bu istiqamətdə dövlətin diqqəti danılmazdır.

## Nəticə

"Xınalıq" Dövlət tarix-memarlıq və etnoqrafiya qoruğu bu gün Azərbaycan Respublikasının ən qədim yaşayış məskənlərindən biri kimi qorunur. Bu istiqamətlərdə bir sıra tədbir və layihələr həyata keçirilib və keçirililməkdədir. Bu gün muzeydə qorunan nadir eksponatlar öz zənginliyi və qədimliyi ilə hər kəsi heyrətləndirir. Hazırda arxeoloqlar hələ də bu ərazidə axtarışlarını davam etdirilər. Burada Salavat yurdu, Salavat karvansaraları, Xillələrin yurdu, "Bərk-şanə" qədim yaşayış yurdu, "Orta Tənə" qədim yaşayış yurdu, "Yumşaq ruhlar" qədim yaşayış yurdu, alban qəbiristanlıqları kimi qədim yaşayış yerləri var. Bu ərazidə Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən geniş arxeoloji qazıntılar başlanıb. Qazıntılar zamanı eramızdan əvvəl III-II minilliklərə aid olması ehtimal edilən 5 böyük kurqan tapılıb. Bu kurqanların tədqiqindən sonra Xınalıq kəndi ilə bağlı yeni mülahizələrin də ortaya çıxması mümkündür.

Azərbaycanın bir parçası olan Xınalıqda Regionların Sosial İqtisadi İnkişaf Dövlət Proqramı çərcivəsində bir sıra işlər həyata keçrilib. Bunun bariz nümunəsi Xınalıq kəndinin daim turistlərin görmək istədiyi bir məkan olmasını nümunə kimi qeyd edə bilərik. Bu gün Azərbaycanda turizm sektorunun inkişafı və bu istiqamətdə Xınalıq kəndinin də özünəməxsus rolu var. Xınalıqda əhalinin yaşam tərzi özünəməxsusluğu ilə fərqlənir. Bu, turistlərin diqqətini xüsusilə cəlb edir. Heyvandarlığın inkişaf etdiyi bölgə otlaqları, şəffaf bulaq suyu ilə də zəngindir. Burada toxuculuq da inkişaf edib. Yerli əhali ip əyirir, zövqlü naxışlarla paltarlar,

corablar toxuyurlar. Turistlər bu toxunma malları həvəslə hədiyyə alıb aparırlar. Bu həm də kənd əhalisinin məşğulluğunu təmin edir.

Xınalığın bu gün dünyaya tanıdılması istiqamətində Azərbaycan dövləti xüsusi fəaliyyət planı hazırlayıb. Bu yöndə aparılan işlərin bariz nümunəsi kimi UNESCO - nun xınalıqlıların yerli dilini ciddi təhlükə altında olan dillər siyahısına daxil edilməsini göstərmək olar.

**Ədəbiyyat**


1. "Azərbaycan Respublikasının Quba rayonunun Xınalıq kəndinin tarixi ərazisinin Azərbaycan Respublikasının "Xınalıq" Dövlət tarix-memarlıq və etnoqrafiya qoruğu və Ağstafa rayonunun ərazisində Keşikçidağ silsiləsinin bir hissəsini əhatə edən mağaralar kompleksinin Azərbaycan Respublikasının "Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğu elan edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidentinin 19 dekabr 2007-ci il tarixli, 2563 nömrəli Sərəncamı.
2. "Azərbaycan Respublikasının "Xınalıq" Dövlət tarix-memarlıq və etnoqrafiya qoruğunun, "Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğunun və "Atəşgah məbədi" Dövlət tarix-memarlıq qoruğunun əsasnamələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 19 sentyabr 2008-ci il tarixli, 220 nömrəli Qərarı

3.Azərbaycanın koloritli kəndləri: Xınalıq 2 mart 2018 [http://seyyah.az/news/5918?country=0&city=0&minprice=50&maxprice=650&t=1]

4. Əmirxanov S. "Xınalıq – açıq səma altında muzey" Xalq qəzeti.- 2008. 8 yanvar. -S. 5. [http://www.anl.az/down/medeniyyet2008/yanvar/medeniyyet2008_yanvar_55.htm.]

5. "Xınalıq" Dövlət tarix-memarlıq və etnoqrafiya qoruğunda arxeoloji qazıntı işləri aparılmışdır. 18.08.2017 [http://www.kultura.gov.az/az/umumi-xeberler/xinaliq-dovlet-tarix-memarliq-ve-etnoqrafiya-qorugunda-arxeoloji-qazinti-isleri-aparilmisdir]

6. Xınalıq Dünya Abidələr Fondunun siyahısına daxil edilib. "525-ci qəzet", 9 iyun 2007, səh. 32.

7. Xınalıq kəndinin yerləşməsi və onun quruluşu [https://web.archive.org/web/20180812170101/http://xinaliq.az/?page_id=144]

8. Xınalıq tarix – etnoqrafiya muzeyi [https://az.wikipedia.org/wiki/X%C4%B1nal%C4%B1q_tarix-etnoqrafiya_muzeyi]

9. Xınalıq və onun turizm potensialı [https://multikultural.az/az/milli-azliqlar/279/xinaliq-ve-onun-turizm -potensiali/]

10. Mədəniyyət və Turizm Nazirliyinin 2010-cu il ərzində gördüyü işlər haqqında HESABAT.

11. M.Nerimanoğlu Xınalıqda 2500 il yaşı olan nekropol aşkarlanıb. Azərbaycan.- 2018.- 3 avqust. - S.5.


**Historical causes of khinali historical-ethnographic museum**

**Summary**

The article provides detailed information about the reasons for the establishment of the Khinalig Historical and Ethnographic Museum. At the same time, the importance of this museum is emphasized at a time when the tourism sector of our country is developing. In addition, the research conducted by historians, archeologists and ethnographers in the area is gradually presented, noting that Azerbaijan is a country with an ancient history and highly values multicultural values. In addition, the article provides interesting information about the rare exhibits preserved in the Open Air Museum and their history.

**Исторические причины хинальского историко-этнографического музея**

**Резюме**

В статье представлена подробная информация о причинах создания Хиналигского историко-этнографического музея. В то же время важность этого музея подчеркивается в то время, когда развивается туристический сектор нашей страны. Кроме того, постепенно проводятся исследования, проведенные историками, археологами и этнографами в этой области, отмечая, что Азербайджан является страной с древней историей и высоко ценит мультикультурные ценности. Кроме того, в статье представлена интересная информация о редких экспонатах, хранящихся в Музее под Открытым Небом, и их истории.

**Rəyçi: dos. X.Dadaşov**

Göndərilib: 20.05.2020 Qəbul edilib: 22.05.2020